# AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

AZ1122 Bakı şəhəri,
H.Zərdabi küç, 96

Tel: (+99412) 431-60-88, Faks: (+99412) 430-52-85
Elektron poçt: office@isim.az http://www.isim.az


"___" __________ 2015-ci il                    №__________

## ƏMR № 100

**Bakı şəhəri**                    **28 aprel 2015-ci il**

**"Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planının icrası məqsədi ilə görüş və mühazirələr keçirilməsi barədə"**

Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2011-ci il tarixli 1621 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planının icrasının təmin edilməsi məqsədi ilə

**ƏMR EDİRƏM**

1. "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planının 6.6.3-cü bəndinin 2-ci hissəsinə uyğun olaraq İSİM, Təhsil nazirliyi və Ümidli Gələcək QHT ilə birgə 2015-ci ilin may və iyun aylarında aşağıdakı tədbirlər həyata keçirilsin:

1.1. Respublikanın tam orta məktəbləri, peşə məktəbləri və liseylərində uşaq və yeniyetmələrin reproduktiv sağlamlığına dair tədris və maarifləndirmə prosesinin səmərəli və dayanıqlı təşkili məqsədilə 25 müəllim üçün reproduktiv sağlamlıq mövzusunda dəvət ediləcək beynəlxalq mütəxəssislərin iştirakı ilə 5 günlük təlimçilər üçün təlim təşkil edilsin.

1.2. Reproduktiv sağlamlığın tədrisinə dair hazırlanmış metodoloji vəsaitin beynəlxalq mütəxəssislərin iştirakı ilə təkmilləşdirilməsi və tədris prosesində istifadə ediləcək əlavə materialların tərcüməsi və uyğunlaşdırılması (adaptasiyası) təmin edilsin.

1.3. Təşkil olunmuş təlimlərin nəticələrinin təhlili, təlim proqramı və təlim vəsaitinin istifadəsinə dair tövsiyələrin müzakirəsi məqsədilə beynəlxalq mütəxəssislərin, Təhsil Nazirliyinin nümayəndələrinin iştirakı ilə seminar-müzakirə təşkil edilsin.

1.4. Respublikanın Ucar, Göyçay, Quba, Xaçmaz, Ağdaş, Zaqatala, Qax, Qəbələ, Hacıqabul, Şirvan və Zərdab rayonlarının tam orta məktəblərində reproduktiv sağlamlığın tədrisinə dair biologiya və həyat bilgisi fənlərinin müəllimləri üçün hər biri 25 nəfər üçün nəzərdə tutulmuş 11 iki-günlük təlim təşkil edilsin.

1.5. Respublikanın Ucar, Göyçay, Quba, Xaçmaz, Ağdaş, Zaqatala, Qax, Qəbələ, Hacıqabul, Şirvan və Zərdab rayonlarının tam orta məktəblərində 5000 şagird və 1000 valideyn üçün reproduktiv sağlamlığa dair seminar və dərslərin təşkilinə dəstək verilsin.

1.6. İSİM-in e-təlim portalında və Təhsil Nazirliyinin e-təhsil portalında reproduktiv sağlamlığa dair Virtual Təlim kursu yaradılsın.

2. Əmrin 1-ci bəndində qeyd olunan tədbirlərin təşkili və keçirilməsi üçün iş planı təsdiq edilsin (Əlavə).

3. Baş mühasib Abuzər Məmmədova tapşırılsın ki, Əmrin 1-ci bəndində qeyd olunan tədbirlərin təşkili və keçirilməsi üçün iş planına uyğun xərclərin smetası tərtib edilsin və həmin smeta üzrə vəsaitin İSİM-in bu məqsəd üçün nəzərdə tutulmuş büdcəsi hesabına ödənilməsi təmin edilsin.

4. Əmrin 1-ci bəndində qeyd olunan tədbirlərin təşkili və keçirilməsinə nəzarət, eləcə də bu tədbirlər barədə məlumatın verilməsi Səhiyyə siyasəti və islahatlar şöbəsinin meneceri Nabil Seyidova tapşırılsın.

5. Əmrin icrasına nəzarət direktorun birinci müavini Rauf Məmmədova həvalə edilsin.

**Direktor** **Ceyhun Məmmədov**

**İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru cənab Ceyhun Məmmədova**

# MƏLUMAT

Səhiyyə Nazirliyinin 26.01.2012-ci il tarixli 6 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planının 6.6.3-cü bəndinə əsasən reproduktiv sağlamlıq sahəsində maarifləndirmə işinin genişləndirilməsi, o cümlədən təhsil müəssisələrində gənclər və yeniyetmələr üçün reproduktiv sağlamlığa dair mühazirələrin təşkili İctimai Səhiyyə və İslahatlar Mərkəzinə (İSİM) həvalə edilib.

Bu məqsədlə Səhiyyə Nazirliyinin İSİM-i Təhsil Nazirliyi və Ümidli Gələcək QHT ilə əməkdaşlıqda həyata keçirilən pilot layihə çərçivəsində 2014-cü ilin oktyabr ayında 2015-ci ilin mart ayınadək ölkənin tam orta məktəblərində reproduktiv sağlamlığın tədrisini təkmilləşdirmək və uşaq və valideynlər arasında maarifləndirmə işini gücləndirmək məqsədilə nümunəvi tədris və maarifləndirmə proqramı, habelə müəllimlər üçün metodiki vəsaitin ilkin variantı hazırlanmış, Bakı, Gəncə, Şəki, Lənkəran və Mingəçevir şəhərlərində biologiya və həyat bilgisi fənləri üzrə dərs deyən müəllimlər üçün təlimçilər üçün təlimlər keçirilmiş, Bakı və Sumqayıt şəhərlərinin 50-ə yaxın tam orta məktəbində təlimdən keçmiş müəllimlərin iştirakı ilə 5.000-dən çox şagird və 500-dən çox valideyn üçün maarifləndirici seminarlar və dərslər aparılmışdır.

Bu layihənin uğurlu nəticələrini nəzərə alaraq və yuxarıda qeyd edilmiş dövlət proqramının müvafiq bəndinə uyğun olaraq, 2015-ci ilin aprel ayından 2015-ci ilin iyun ayınadək aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədə uyğun hesab edilir:

a) ölkənin tam orta məktəbləri, peşə məktəbləri və liseylərində uşaq və yeniyetmələrin reproduktiv sağlamlığına dair tədris və maarifləndirmə prosesinin səmərəli və dayanıqlı təşkili məqsədilə ötən il İSİM tərəfindən təşkil olunmuş təlimdə iştirak etmiş 60 müəllim arasından seçilmiş 25 müəllim üçün Avropa ölkələri və ABŞ-dan dəvət ediləcək beynəlxalq mütəxəssislərin iştirakı ilə 5 günlük təlimçilər üçün təlim kursunun keçirilməsi,

b) reproduktiv sağlamlığın tədrisinə dair hazırlanmış metodoloji vəsaitin beynəlxalq mütəxəssislərin iştirakı ilə təkmilləşdirilməsi və tədris prosesində istifadə ediləcək əlavə materialların tərcüməsi və adaptasiyası;

c) proqramın icrası, əldə edilmiş nəticələrin təhlili, təlim proqramı və təlim vəsaitinin istifadəsinə dair tövsiyələrin müzakirəsi məqsədilə beynəlxalq mütəxəssislərin, Təhsil Nazirliyinin nümayəndələrinin iştirakı ilə seminar-müzakirənin təşkili;

d) 2014-cü ildə başlamış təlim və seminarların davamı olaraq, Ucar, Göyçay, Quba, Xaçmaz, Ağdaş, Zaqatala, Qax, Qəbələ, Hacıqabul, Şirvan, Zərdab rayonlarının tam orta məktəblərində reproduktiv sağlamlığın tədrisinə dair biologiya və həyat bilgisi fənlərinin müəllimləri üçün hər biri 25 nəfər üçün nəzərdə tutulmuş 2 günlük təlimlərin təşkili və bu dövrdə həmçinin 5.000 şagird və 1.000 valideyn üçün reproduktiv sağlamlığa dair seminar və dərslərin keçirilməsi, habelə

d) İSİM-in e-təlim portalında və Təhsil Nazirliyinin e-təhsil portalında Reproduktiv sağlamlığa dair Virtual Təlim Kursunun yaradılması və tətbiqi.

**Səhiyyə Siyasəti və İslahatlar şöbəsinin müdiri**

**Töhfə Cəmilova**
**07.04.2015**